# Qırğızıstanın Müstəqillik Günü ölkəmizdə qeyd edilib





**Avqustun 31-də Qırğız Respublikasının müstəqilliyinin 33-cü, Qara-Qırğız Muxtar Vilayətinin yaradılmasının 100-cü ildönümü münasibətilə Bakıda rəsmi qəbul təşkil edilib.**

Mərasimdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, dövlət və hökumət nümayəndələri, altıncı çağırış Milli Məclisin deputatları, ölkəmizdəki diplomatik korpusun təmsilçiləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Rəsmi qəbulda iştirakına görə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevaya səmimi təşəkkürünü və minnətdarlığını bildirən Qırğız Respublikasının ölkəmizdəki səfiri Maksat Mamıtkanov ölkələrimizin dost və qardaş olduqlarını diqqətə çatdırıb. Vurğulayıb ki, bizi bir-birimizə sıx tellər bağlayır, ölkələrimiz arasında qarşılıqlı əlaqələr, birgə fəaliyyətimiz əla səviyyədədir.

Qırğızıstan Prezidentinin cari ilin aprelində ölkəmizə dövlət səfərinin önəmini diqqətə çatdıran səfir Azərbaycan–Qırğız İnkişaf Fondunun yaradılmasının əhəmiyyətinə toxunub, onun ölkələrimiz arasında əməkdaşlığın genişləndirilməsində rolunu qeyd edib.

Xalqlarımıza sülh, əmin-amanlıq arzulayan diplomat tarixi köklərə əsaslanan Qırğızıstan–Azərbaycan dostluğunun ümumi maraqlar əsasında bundan sonra da yüksələn tempdə inkişaf edəcəyinə əminliyini bildirib.

Qırğız Respublikasının müstəqillik günü münasibətilə təbriklərini çatdıran Leyla Əliyeva qırğız xalqına əmin-amanlıq, firavanlıq arzulayıb və İssık-Kul gölünə həsr etdiyi şeirini səsləndirib.

Tədbirdə Leyla Əliyevaya xatirə hədiyyəsi təqdim edilib.

Azərbaycan Hökuməti adından Qırğız dövlətini və xalqını təbrik edən energetika naziri Pərviz Şahbazov isə bildirib ki, xalqlarımız arasında ənənəvi dostluq və qardaşlıq əlaqələri tarixən mövcud olub. Azərbaycan–Qırğızıstan əlaqələri strateji tərəfdaşlıq səviyyəsindədir: “Azərbaycan və qırğız xalqlarının tarixi dostluğa və qardaşlığa əsaslanan əlaqələri hər iki ölkənin liderlərinin siyasi iradəsi ilə uğurla inkişaf edir. Bu gün ölkələrimiz arasında bir sıra sahələrdə, xüsusilə də ticarət, iqtisadiyyat, investisiya və nəqliyyat sahələrində əməkdaşlıq uğurla inkişaf edir və mühüm layihələr həyata keçirilir”.

Ölkələrimiz arasındakı iqtisadi əlaqələrdən, bərpaolunan enerji istiqamətində səmərəli əməkdaşlıqdan, külək və enerji sahəsi üzrə qoyulan birgə investisiyalardan danışan Pərviz Şahbazov Qırğız Respublikasının Azərbaycanı işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işlərində də dəstəklədiyini qeyd edib.

*XQ*